

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 iyun 2026-cı il №38 (3040) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Avropa çempionu olan minifutbol üzrə Azərbaycan millisini təbrik edib




Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbik edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı dövlətimizin başçısının sosial şəbəkə hesablarında paylaşım edilib.

"2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir.

Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram", - deyə paylaşımda bildirilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva minifutbol üzrə Azərbaycan millisini təbrik edib



İyunun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Birinci vitse-prezidentin rəsmi instaqram hesabında paylaşım edilib.

"Avropa çempionatının qalibi olan Azərbaycan minifutbol yığmasını təbrik edir, milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!", - deyə paylaşımda bildirilib.

*Təlim*

## Təlim qələbənin rəhnidir

***"Təlimdə tər tökən əsgər, döyüşdə qan tökməz" - bu fikirlər dünya və Rusiya hərb tarixinin ən qüdrətli sərkərdələrindən biri olan Aleksandr Suvorova aiddir. Tarixin sınağından çıxan bu kəlamı hərbçilərimiz də tez-tez xatırlayırlar. Ötən əsrin sonuncu on illiyində xalqımız öz müstəqilliyinə yenidən qovuşdu. Elə müstəqilliklə bərabər ərazi bütövlüyümüzə qarşı erməni təcavüzü ilə üz-üzə qaldıq. Müharibələr oldu, torpaq, insan itkisi verdik. Nə qədər acı olsa da, müvəqqəti məğlubiyyət yaşadıq. Amma xalq olaraq heç vaxt ruhdan düşmədik. İşğal altında olan torpaqlarımızı azad etmək üçün səylərimizi daha da artırdıq.***



Azərbaycan Ordusunun döyüş yolu inkişaf etmiş ölkələrin orduları üçün də gözlənilməz oldu. Onlar ordumuzun döyüş təcrübəsini, hərbi qulluqçularımızın ruh yüksəkliyini öz ordularında tətbiq etmək qərarına gəliblər. Gənc bir dövlətin ordusunun belə bir döyüş təcrübəsinə malik olması söz yox ki, komandir heyətinin zəngin əməyinin bəhrəsidir. Hərbi qulluqçularımız bu gün də bilik və bacarıqlarını durmadan artırırlar. Onlar təsdiq olunmuş döyüş hazırlığı planına əsasən müntəzəm olaraq təlimlərə cəlb olunurlar.

...Yarım dağlıq ərazidə hazırlanmış təlim sahəsində əsgərlər çöl məşğələsinə cəlb olunmuşdular. Kapitan Maarif Zeynalov təcrübəli, döyüş yolu keçmiş hərbçilərimizdəndir. O dedi ki, yaradılmış təlim sahəsində demək olar ki, bütün hərbi ixtisaslar üzrə taktiki zolaqlar hazırlanıb. Əsgərlərin döyüş vaxtı üzləşəcəyi manevrlər burada quraşdırılıb. Onlara təcrübəli komandirlər tərəfindən həmin manevrlərin aşılması, müdafiə mövqeyinin tutulması, eləcə də digər lazımi praktiki vərdişlər aşılanır.

Yaxınlıqda diqqətimizi çəkən motoatıcı manqa hazırlığını davam etdirirdi. Manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Feyruz Namazov manevrlər zolağının keçilməsi qaydalarını əsgərlərə izah edirdi. Feyruz 6 ildir ki, manqa komandiri kimi xidmət edir. Gədəbəy rayonunun Kiçik Qaramurad kəndindəndir. O bildirdi ki, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra gələcək həyatını ordu sıralarında xidmət etməklə davam etdirmək qərarına gəlib. "Tərxis olunandan sonra "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na sənədlərimi təqdim etdim və imtahandan müvəffəqiyyətlə keçdim. Manqa komandiri kimi xidmətə başlayandan sonra qarşıma məqsəd qoydum ki, əldə etdiyim hərbi bilikləri əsgərlərə aşılayım".

**(Ardı 4-cü səhifədə)**

## Sıra hazırlığı intizamın və döyüş hazırlığının vacib tərkib hissəsidir

Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkar hazırlığının əsas istiqamətlərindən biri sıra hazırlığıdır. Sıra hazırlığı şəxsi heyətdə hərbi intizamın möhkəmləndirilməsinə, kollektiv fəaliyyət vərdişlərinin formalaşdırılmasına, verilən komandaların dəqiq və vaxtında yerinə yetirilməsinə xidmət edir. Bu hazırlıq növü hərbi qulluqçuların xarici görünüşündən tutmuş, onların birgə hərəkətetmə bacarıqlarına qədər bir çox vacib keyfiyyətlərin inkişafında mühüm rol oynayır.

Hərbi hissələrdə keçirilən sıra hazırlığı məşğələləri günün nizam qaydasına uyğun olaraq planlı şəkildə təşkil olunur. Məşğələlərdə şəxsi heyət sıra hərəkətinin elementlərini mənimsəyir. Bu prosesə komandir heyətinin peşəkar yanaşması xüsusi əhəmiyyət kəsb edir.

**(Ardı 5-ci səhifədə)**



## Sərhədləri aşan şücaət - polkovnik Osman ağa Gülməmmədov (Osman Kazak)



Osman ağa Gülməmməd ağa oğlu Gülməmmədov 1892-ci il avqustun 16-da Yelizavetpol quberniyasının Qazax qəzasının Salahlı kəndində anadan olub. O, Azərbaycan Xalq Cümhuriyyətinin zabiti, Türkiyə Silahlı Qüvvələrinin polkovniki, Tərtər və Qarabağ üsyanlarının iştirakçısı Məmməd Qazaxın əmisi, Qori Müəllimlər Seminariyasının məzunu, Qazax Müəllimlər Seminariyasının müəllimi və repressiya qurbanı Əhməd ağa Gülməmmədovun qardaşıdır.

Hərbi xidmətinə 1914-cü ilin sentyabrında könüllü olaraq Qafqaz Yerli Atlı Diviziyasının tərkibində olan Tatar süvari alayında başlayıb. O, 1917-ci ilin avqust ayına qədər həmin alayın tərkibində Avstriya və Rumıniya cəbhələrində gedən hərbi əməliyyatlarda iştirak edib. Hərbi xidmətə sıravi əsgər kimi başlayıb. 8 yanvar 1915-ci ildə "kiçik unter" zabit rütbəsi alıb. 1915-ci ilin fevralında Avstriya cəbhəsindəki Brigen şəhəri uğrunda gedən döyüşlərdə yaralanıb. 1916-cı il martın 22-də "baş unter" və 1917-ci il iyunun 29-da "milis yunkeri" rütbəsi ilə təltif olunub. Cəbhədə göstərdiyi qəhrəmanlıqlara görə 2-ci, 3-cü və 4-cü dərəcəli "Müqəddəs Georgi" xaçı, 2-ci, 3-cü və 4-cü dərəcəli "Müqəddəs Georgi" medalı ilə təltif olunub.

1917-ci ilin payızında Qafqaz Yerli Atlı Diviziyasının alayları Qafqaza geri dönüblər. 1917-ci il dekabrın 11-də Xüsusi Zaqafqaziya Komitəsinin qərarı ilə azərbaycanlılardan ibarət Müsəlman Korpusu yaradılıb. Ələğa Şıxlinskinin rəhbərlik etdiyi korpusun tərkibinə Tatar süvari alayı da daxil idi. Osman ağa bu alayın tərkibində xidmətini davam etdirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra iyunun 26-da Müsəlman Korpusu Ələhiddə Azərbaycan Korpusu adlandırılıb və Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusunun əsası qoyulub.

**(Ardı 8-ci səhifədə)**

## Azərbaycan və Belarus hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib



Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Bakıda hər iki ölkənin hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hüquq xidmətinin təşkili, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qazanılan təcrübəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb.

Hər iki ölkənin hərbi qanunvericiliyinin beynəlxalq hüquq və prinsipləri çərçivəsində uyğunlaşdırılması, eləcə də bir sıra digər məsələlərə dair müzakirələr aparılıb.

## Hərbi təhlükəsizlik sahəsində Azərbaycan və Qırğızıstan nümayəndələrinin görüşü keçirilib





Azərbaycan və Qırğızıstan Müdafiə nazirlikləri arasında imzalanmış 2026-cı ilin ikitərəfli əməkdaşlıq planına əsasən, bu ölkənin hərbi nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi general-mayor Azər İbrahimov qırğızıstanlı qonaqlarla görüşüb.

Görüşdə nümayəndə heyətinə baş idarənin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib və daxili təhlükəsizlik mövzusunda brifinq təqdim olunub.

Tərəflər ölkələrimiz arasında hərbi təhlükəsizliyə dair əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini ətraflı müzakirə edib, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulayıblar.

Bununla yanaşı, görüşdə sözügedən istiqamətdə aktual mövzulardan danışılıb, nümayəndə heyətini maraqlandıran suallar cavablandırılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə fotosu çəkdirilib.

## Hərbi institutda “Süni intellekt” mövzusunda panel müzakirəsi keçirildi







Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetlərinin mütəxəssis heyətinin iştirakı ilə "Süni intellekt" mövzusunda yüksək səviyyəli panel müzakirəsi keçirildi.

Əvvəlcə Azərbaycan və Türkiyənin Ulu Öndərləri Heydər Əliyev və Mustafa Kamal Atatürkün, o cümlədən şəhidlərin əziz xatirələri bir dəqiqəlik sükutla yad olundu.

Açılış nitqi ilə çıxış edən Milli Müdafiə Universiteti rektorunun elm və təhsil üzrə müavini general-mayor Arif Həsənov iştirakçıları Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbərliyi adından salamlayaraq mövzunun böyük əhəmiyyətə malik olduğunu vurğuladı, hər iki ölkənin alimlərinin bu sahəyə gətirdiyi yeniliklərdən danışdı. Rektor müavini qeyd etdi ki, bu gün müzakirəyə çıxarılacaq mövzular olduqca mühüm və zamanın nəbzi ilə döyünən məsələlərdir.

Sonra "Süni intellekt" mövzusunda yüksək səviyyəli panel müzakirəsinin moderatoru, Bakı Hərbi Kollecinin müəllimi Törəxanım Nəsrullayeva çıxış edərək bildirdi ki, mövzu həm aktual, həm də strateji əhəmiyyətə malikdir.



"Bu gün dünya yeni texnoloji inkişaf mərhələsinə qədəm qoyub. Süni intellekt yalnız gələcəyin texnologiyası deyil, dövlət idarəçiliyinin, təhsilin, iqtisadiyyatın, təhlükəsizliyin və müdafiə sahəsinin tərkib hissəsinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev cari ilin 11 fevral tarixində keçirilən müşavirədə qeyd etmişdir ki, süni intellektin tətbiqi, rəqəmsallaşma və innovativ texnologiyaların inkişafı ölkələrin gələcək tərəqqisini müəyyən edən əsas amillərdəndir. Bu fikirlər bir daha göstərir ki, süni intellekt məsələsi təkcə texnoloji deyil, həm də strateji əhəmiyyət daşıyan bir mövzudur".

"Bu gün süni intellektin təsiri altında müasir təhsil sistemləri yenilənir, iqtisadi münasibətlər dəyişir, təhlükəsizlik və müdafiə sahəsində yeni imkanlar yaranır. Xüsusilə hərbi sahədə pilotsuz sistemlər, kibertəhlükəsizlik və qərar qəbuletmə proseslərində süni intellektin rolu getdikcə artır", - deyə Törəxanım Nəsrullayeva qeyd etdi.

Vurğulandı ki, panelin əhəmiyyətini artıran məqamlardan biri də burada həm qardaş Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin dəyərli mütəxəssislərinin, həm də Azərbaycan Respublikasının Milli Müdafiə Universitetinin mütəxəssislərinin iştirak etməsidir. Bildirildi ki, iki qardaş ölkənin təcrübə və baxışlarının mübadiləsi mövzuya daha geniş prizmadan yanaşmağa, faydalı fikir və təkliflərin səsləndirilməsinə imkan yaradacaqdır.

Sonra ətraflı müzakirə etmək məqsədilə panel iştirakçılarının "Süni intellekt" mövzusunda çıxışları dinlənildi. "Süni intellektin tətbiqi strategiyası" haqqında Milli Müdafiə Universiteti rektorunun təhsil məsələləri üzrə müşaviri Rəşad Əhmədovun, "Komanda və idarəetmə dövrəsində süni intellektdən istifadənin risklərinin qiymətləndirilməsi" mövzusunda polkovnik-leytenant Mehmet Bozkurtun, "Süni intellekt dəstəkli qərarvermə sistemləri və kollektiv zəka" mövzusunda do-



sent Musa Millinin çıxışları dinlənildi.

Digər panelistlər - professor Baha Şenin "Süni intellekt dəstəkli dinamik təhdid təhlili tədqiqatlarının fiziki-idrak yönümlü metodlarla həyata keçirilməsi və təhdidlər bazasının formalaşdırılması" və Milli Müdafiə Universitetinin İnformasiyalaşdırma və Texnoloji Təminat Bölməsinin rəisi mayor Cavid Allahverdiyevin "Süni intellektin texniki aspektləri" mövzusunda çıxışları maraqla qarşılandı.

Çıxışlar başa çatdıqdan sonra auditoriya tərəfindən ünvanlanan suallar panelistlər tərəfindən ətraflı cavablandırıldı.

İki qardaş ölkənin mütəxəssislərinin iştirakı ilə hərbi elm və təhsil, müasir təhlükəsizlik çağırışları, liderlik və süni intellekt sahələrində Azərbaycan və Türkiyə arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması məqsədilə keçirilən yüksək səviyyəli panel müzakirəsi xatirə fotosunun çəkdirilməsi ilə başa çatdı.

**"Azərbaycan Ordusu"**

**Türkiyənin milli müdafiə naziri:**
Türkiyənin güclü Hərbi Hava Qüvvələri təhdidlərin qarşısının alınması amilidir

Hərbi Hava Qüvvələri Ankaraya qarşı təhdidlərin dayandırılması, qarşısının alınmasında mühüm və effektiv element olaraq qalır. Türkiyə Hərbi Hava Qüvvələrinin potensialının gücləndirilməsi və gücünün artırılması üçün qətiyyətli addımlar davam edəcək.

Bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler Türkiyə Hərbi Hava Qüvvələri Komandanlığının yaradılmasının 115-ci ildönümü münasibətilə bildirib.

O, müasir geosiyasi proseslərə diqqət çəkərək, bəşəriyyətin beynəlxalq aləmdə güc balansının dəyişdiyi, gərginliyin artdığı və qeyri-müəyyənliyin dərinləşdiyi kritik bir dövrü yaşadığını və bunun da dövlətlərin təhlükəsizlik sistemlərinə birbaşa təsir etdiyini qeyd edib.

"Güclü ordusu, məsuliyyətli siyasəti və çoxşaxəli əlaqələri olan Türkiyə öz imkanları və resursları sayəsində beynəlxalq təhlükəsizlik arxitekturasında, danışıqlar platformalarında əvəzolunmaz iştirakçıdır. Ankara qarşısına daha iddialı hədəflər qoyaraq inamla irəliləyir", - deyə Y.Güler bildirib.

Onun sözlərinə görə, Türkiyə Silahlı Qüvvələrinin yüksək texnologiyalı silahlar və qabaqcıl müdafiə sistemləri ilə təchiz edilməsi ilə yanaşı, aktiv şəxsi heyət hazırlığı da davam edir.

Müdafiə naziri HÜRKUŞ təlim və hücum təyyarələri, HÜRJET səsdən sürətli təlim təyyarəsi və layihələndirilən beşinci nəsil KAAN təyyarəsi də daxil olmaqla yerli aviakonstruktorların inkişaflarına diqqət çəkib.

Nazir Hərbi Hava Qüvvələrini "Türkiyənin qürur mənbəyi" adlandıraraq, ölkənin müdafiə qabiliyyətinə verdiyi töhfələrə görə Hərbi Hava Qüvvələri komandanlığına və şəxsi heyətinə minnətdarlığını bildirib.

*Medallı igidlərimiz*

# Vətənə sədaqət xidmətin əsas meyarıdır



Müasir Azərbaycan Ordusunun gücü və qazandığı uğurlar hər bir hərbi qulluqçunun fədakar xidməti sayəsində mümkün olur. Vətən qarşısında məsuliyyət hissi ilə xidmət edən, peşəkar bilik və bacarıqlarını daim inkişaf etdirən hərbçilər ordumuzun etibarlı dayağıdırlar. Baş gizir Vüsal Fərman oğlu Yunisov da xidmət yolu ilə bu etimadı doğruldan hərbi qulluqçular sırasındadır.

O, 26 aprel 1988-ci ildə Qazax rayonunun Barxudarlı kəndində anadan olub. Onun uşaqlıq illəri ölkəmizin taleyində mürəkkəb dövrə təsadüf edib. 1992-ci ilin aprelində doğma kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu hadisə ailəsinin və yaxınlarının həyatında dərin iz buraxıb. Atasının Birinci Qarabağ müharibəsi iştirakçısı və II qrup əlil olması Vüsalın vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynayıb. Sonralar atasını itirsə də, onun həyat yolu və Vətənə bağlılığı Vüsal üçün hər zaman örnək olub.

Gənc yaşlarından hərbi peşəyə maraq göstərən Vüsal Yunisov 2007-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb. Xidmət dövründə intizamı, çalışqanlığı və tapşırıqlara məsuliyyətlə yanaşması ilə fərqlənərək komandanlığın etimadını qazanıb. Daim öz üzərində işləməsi və peşəkar biliklərini artırmağa can atması onun gələcək hərbi fəaliyyətində mühüm rol oynayıb.

2014-cü ildə "Gizir hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vurduqdan sonra artilleriya sahəsində xidmətini davam etdirib. Həmin dövrdən etibarən xidmət etdiyi hərbi hissədə müxtəlif vəzifələrdə çalışaraq topladığı təcrübəni daha da zənginləşdirib. Döyüş texnikasının idarə olunması, atəş tapşırıqlarının icrası və şəxsi heyətin hazırlığı sahəsində qazandığı biliklər sonrakı fəaliyyətində özünü aydın şəkildə göstərib.

V.Yunisov xidmət etdiyi illər ərzində keçirilən təlimlərdə də fəallığı ilə seçilib. 2017-ci ildə briqadanın döyüş atışlı tank təlimində nümayiş etdirdiyi yüksək nəticələrə görə komandanlıq tərəfindən mükafatlandırılıb.

2018-ci ildə taborun baş çavuşu vəzifəsinə təyin edilən Vüsal Yunisov şəxsi heyətin hazırlığı, intizamın qorunması və xidmətin düzgün təşkili istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Həmin il Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyinə həsr olunan hərbi paradda iştirak etməsi də onun xidmət yolunda əlamətdar hadisələrdən biri kimi yer alıb.

2020-ci ildə başlayan Vətən müharibəsi hər bir Azərbaycan vətəndaşı kimi, onun da həyatında xüsusi yer tutur. O, döyüşlərə könüllü olaraq qatılıb və divizionun tərkibində top komandiri kimi fəaliyyət göstərib. Suqovuşan və Talış istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edən Vüsal üzərinə düşən tapşırıqları dəqiq və vaxtında yerinə yetirərək döyüş yoldaşları ilə birlikdə qələbənin qazanılmasına öz töhfəsini verib.

Vətən müharibəsində əldə olunan tarixi Zəfər Azərbaycan Ordusunun gücünü və peşəkarlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Döyüş əməliyyatlarında göstərdiyi xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilib və Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Bu gün də xidmətini davam etdirən baş gizir Vüsal Yunisov hərbi qulluqçu üçün vacib olan keyfiyyətləri öz xidməti fəaliyyətində yaşadır. O, gənc hərbi qulluqçulara nümunə göstərilən, məsuliyyətli, intizamlı və peşəsinə bağlı hərbçilərdəndir. Komandanlığın tapşırıqlarını dəqiqliklə yerinə yetirməsi, kollektivdə qazandığı hörmət onu nümunəvi hərbi qulluqçu kimi tanıdıb.

Azərbaycan Ordusunun gücü məhz belə vətənpərvər, peşəkar və sədaqətli hərbçilərin fəaliyyəti ilə daha da artır. Baş gizir Vüsal Yunisovun keçdiyi xidmət yolu göstərir ki, Vətənə bağlılıq, zəhmət və məsuliyyət hissi hər bir uğurun əsasını təşkil edir. Doğma torpaqların müdafiəsini həyat amalı seçən belə hərbçilər dövlətimizin təhlükəsizliyinin etibarlı təminatçısı olmaqla yanaşı, gənc nəslə də örnəkdirlər.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "İxtisasımız səbir, diqqət, soyuqqanlılıq və peşəkarlıq tələb edir"

*Müasir döyüş əməliyyatlarında snayperlər xüsusi hazırlığa malik hərbi qulluqçular hesab olunurlar. Onların əsas vəzifələri uzaq məsafələrdən hədəfləri yüksək dəqiqliklə məhv etmək, müşahidə və kəşfiyyat aparmaq, əldə olunan məlumatları vaxtında komandanlığa çatdırmaqdan ibarətdir. Yüksək peşəkarlıq, səbir, dözümlülük və diqqət tələb edən bu ixtisas hərbi xidmətin ən məsuliyyətli sahələrindən biri sayılır.*



"Snayper" termini ingilis dilində çətin vurulan "snipe" quşunun adından yaranıb. Bu quş çox sürətlə və ziqzaqvari uçduğu üçün onu vurmaq fövqəladə atıcılıq bacarığı tələb edirdi. 1770-ci illərdə Hindistandakı britaniyalı əsgərlər bu quşu ovlamaq üçün yarışlar təşkil edirdilər. Havada bu çətin hədəfi vurmağı bacaran mahir ovçulara "sniper" yəni, snipe quşunu vuran deyilirdi.

Sniper sözü rəsmi olaraq 1824-cü ildə lüğətlərə daxil oldu. Birinci Dünya müharibəsi zamanı isə ovçuluq leksikonundan hərb sahəsinə keçərək uzaq məsafədən dəqiq atəş açan gizli əsgərlərin rəsmi adı oldu.

Tarixən snayperlərdən geniş şəkildə XIX əsrdən etibarən istifadə olunmağa başlanıb. Birinci və İkinci Dünya müharibələri dövründə onların döyüş əməliyyatlarındakı rolu daha da artıb. Bu gün isə snayperlər dünyanın qabaqcıl ordularında xüsusi hazırlıqlı hərbi qulluqçular kimi mühüm tapşırıqlar icra edirlər.

Azərbaycan Ordusunda da snayperlərin döyüş hazırlığı daim diqqət mərkəzində saxlanılır. Hərbi qulluqçular müasir silah və cihazlardan istifadə qaydalarını mənimsəyir, maskalanma, müşahidə, kəşfiyyat, taktiki fəaliyyət və dəqiq atıcılıq üzrə hazırlıq keçirlər. Təlim və məşğələlər zamanı müxtəlif relyef şəraitində fəaliyyət, fərdi və qrup halında tapşırıqların icrası, həmçinin şərti düşmənin mühüm hədəflərinin zərərsizləşdirilməsi üzrə bacarıqlar təkmilləşdirilir.

Bu çətin ixtisası seçənlərdən biri də əsgər Elgün Mehbalıyevdir. Elgün artıq 9 aydır ki, hərbi xidmətdədir. O, xidmətə başlamazdan əvvəl Azərbaycan Memarlıq və İnşaat Universitetində "Hidrotexnik mühəndis" ixtisası üzrə ali təhsil alıb.

Əsgər Mehbalıyev bildirdi ki, snayper peşəsinə marağı hələ gənc yaşlarından yaranıb. Oxuduğu kitablar və izlədiyi hərbi mövzulu filmlər onda bu ixtisasa xüsusi maraq formalaşdırıb. Snayperlərin peşəkarlığı, dəqiqliyi və çətin şəraitdə fəaliyyət göstərmək bacarığı onun diqqətini cəlb edib. "Hələ məktəb illərindən hərb sahəsinə böyük maraq göstərirdim. Hərbi mövzuda kitablar oxuyur, filmlər izləyirdim. Xüsusilə snayperlərin fəaliyyəti məni daha çox cəlb edirdi. Onların yüksək hazırlığı, səbirli olması, məsuliyyətli qərarlar qəbul etməsi və qarşıya qoyulan tapşırıqları dəqiqliklə yerinə yetirməsi məndə bu peşəyə maraq yaratdı. Azərbaycan Ordusunun sıralarında xidmətə başladıqdan sonra bu sahədə özümü sınamaq qərarına gəldim. Keçdiyim müvafiq hazırlıq kursları və təlimlər sayəsində snayper kimi formalaşdım. İxtisasımız səbir, diqqət, soyuqqanlılıq və peşəkarlıq tələb edir".

Hərbi xidmət dövründə bu sahədə bilik və bacarıqlarını daha da inkişaf etdirən əsgər Mehbalıyev müxtəlif növ atıcılıq məşğələlərində iştirak edir, optik və mexaniki nişangahlardan istifadə qaydalarını mənimsəyir. O, hədəfin məsafəsinin müəyyən edilməsi, müşahidənin aparılması, maskalanma üsullarının tətbiqi və atəşin dəqiqliyinin artırılması istiqamətində öz üzərində mütəmadi çalışır.

Əsgərin sözlərinə görə snayper üçün yalnız silahdan düzgün istifadə etmək kifayət deyil. "Bu peşə sahibindən yüksək fiziki hazırlıq, psixoloji dayanıqlıq, soyuqqanlılıq və səbir tələb olunur. Bəzən uzun müddət eyni mövqedə qalmaq, ətraf mühiti diqqətlə izləmək və qısa zaman ərzində düzgün qərar qəbul etmək lazım gəlir".

Döyüş hazırlığı tədbirləri zamanı snayperlər müxtəlif hava və relyef şəraitində tapşırıqlar yerinə yetirir, fərqli məsafələrdə yerləşən hədəflərə atəş açırlar. Bu məşğələlər onların peşə hazırlığının artırılmasına, praktiki vərdişlərinin təkmilləşdirilməsinə və qarşıya qoyulan tapşırıqları daha dəqiq icra etmələrinə imkan yaradır.

Azərbaycan Ordusunda xidmət etməyi böyük şərəf hesab edən əsgər Elgün Mehbalıyev gələcəkdə də öz üzərində çalışaraq bilik və bacarıqlarını artırmağı qarşısına məqsəd qoyub. O, hər bir Azərbaycan hərbçisi kimi, Vətən qarşısında üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışdığını bildirdi.

Peşəkar, səbirli və yüksək məsuliyyətli snayperlər Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılmasında mühüm rol oynayırlar. Bu sahədə xidmət edən hərbi qulluqçuların hazırlığının daim təkmilləşdirilməsi ordumuzun gücünün və döyüş imkanlarının daha da artırılmasına xidmət edir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Təlim qələbənin rəhnidir



(Əvvəli 1-ci səhifədə)

Vəzifə borclarımı, hərbi nizamnamələri daha dərindən öyrənirəm. Əsgərlərə izah edirəm ki, döyüş vaxtı ərazidə müxtəlif cisimlər ola bilər - daş, kötük və başqa maneələr kimi. Hücum edən əsgər həmin maneələrin arxasında özünə mövqe seçməlidir. Döyüşçü özünü düşməndən qorumaqla yanaşı, döyüş atışını təhlükəsiz şəkildə həyata keçirməyi bacarmalıdır. Bu incəlikləri bilən əsgərin döyüş tapşırığını uğurla yerinə yetirmək ehtimalı çoxdur".

Əsgər Tahir Əvəzli öyrədilənləri yetərincə mənimsəyib. Dəfələrlə çöl təlimlərində iştirak edib, döyüş atışlı çalışmaları yerinə yetirib. Həmişə taktiki təlimdə və atışda yüksək nəticə göstərib. Bu səbəbdən də komandirlərin hörmətini qazanıb. Əsgər Tahir Əvəzli "döyüşə" vəziyyətinə ən qısa zamanda gəlir. Yəni, ayrılan vaxtdan bir qədər tez tapşırığı icra edir.

Atıcı əsgərlərdən Ramazan Eyvazov, Cavid Həsrətov, Hüseyn Məşədiyev və başqaları maneələr zolağını asanlıqla keçirdilər. Əsgərlər verilən hər bir komandanı daha çevik icra edirdilər.

Əsgər Ülvi Kərimov üçün hərbi xidmət böyük bir məktəbdir. O, burada hərbin incəliklərini dərindən mənimsəyib. "Artıq torpaqlarımız işğaldan azad olunub, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib. Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra ermənilər bir daha ərazi iddiasına düşməyəcəklər. Çünki onlar Azərbaycan Ordusunun gücünü 44 günlük Vətən müharibəsində gördülər. Bu gün müharibənin başa çatmasına baxmayaraq, biz öz bilik və bacarıqlarımızı durmadan artırır, komandirlərimizin öyrətdiklərini dərindən mənimsəməyə çalışırıq".

Əsgəri sevdirən, uca edən onun ruh yüksəkliyi və peşəkarlığıdır. Təlim meydanında əsgərlər durmadan dərsin mövzusuna uyğun çalışmaları yerinə yetirməklə nəzəri biliklərini, praktiki vərdişlərini artırırlar. Kapitan Maarif Zeynalov da təlim yerində əsgərlərin yol verdikləri ən kiçik nöqsanları görür və yerində aradan qaldırmaqla onların praktiki vərdişlərinin təkmilləşməsinə yardımçı olurdu.





Gördüklərimiz bir daha onu deməyə əsas verir ki, ordumuz öz döyüş qabiliyyətini yüksəltməklə dövlətimizin qüdrətini artırır. Əsgərlərə xidmətlərində uğurlar arzulayıb, təlim yerindən xoş ovqatla ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# "Heyətimizin döyüş hazırlığına xüsusi diqqət yetirilir"

Müasir döyüş əməliyyatlarında atəş dəstəyi vasitələri bölmələrin qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməsində mühüm rol oynayır. Bu baxımdan AQS-17 avtomatik qumbaraatanı yüksək döyüş imkanlarına malik qurğulardan biri hesab olunur. Düşmənin canlı qüvvəsinin, atəş nöqtələrinin, səngər və istehkamlarının, eləcə də yüngül zirehli hədəflərinin məhv edilməsi üçün nəzərdə tutulan bu avtomatik qumbaraatan döyüş meydanında geniş tətbiq olunur. Yüksək atəş sürəti və güclü zərbə təsiri sayəsində AQS-17 həm hücum, həm də müdafiə əməliyyatlarında bölmələrin etibarlı atəş dəstəyi vasitəsi kimi çıxış edir.

Üçayaqlı dəzgah üzərində quraşdırılan qurğunun əsas üstünlüklərindən biri həm birbaşa, həm də örtülü mövqelərdən atəş açmağa imkan verməsidir. Bu xüsusiyyət müxtəlif taktiki şəraitlərdə silahın çevik tətbiqini təmin edir. Avtomatik işləmə prinsipi və lentlə qidalanma sistemi isə qısa müddət ərzində intensiv atəş aparılmasına şərait yaradır ki, bu da döyüş əməliyyatları zamanı heyətə əlavə üstünlük qazandırır.

"N" hərbi hissəsində ezamiyyətdə olarkən bölmələrdən birinin dərs prosesini izlədik. Manqa komandiri, baş qumbaraatan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elşad Mehdiyevin nəzarəti altında heyət üzvləri onlara təhkim olunan qurğunun taktiki-texniki xüsusiyyətlərini öyrənirdilər. Beş ildir ki, ordu sıralarında xidmət edən Elşad Mehdiyev qurğu haqqında məlumat verərək bildirdi ki, baş vermiş hərbi münaqişələr zamanı etibarlılığını dəfələrlə sübut edən AQS-17 avtomatik qumbaraatanı sadə istismar qaydaları və yüksək dözümlülüyü ilə seçilir. "Lakin silahın döyüş imkanlarından maksimum səmərə ilə istifadə olunması onu tətbiq edən heyətin hazırlıq səviyyəsindən də birbaşa asılıdır. Bu səbəbdən bölmələrdə avtomatik qumbaraatan heyətlərinin döyüş hazırlığına xüsusi diqqət yetirilir".



Manqa komandiri qeyd etdi ki, silahın effektivliyi xüsusilə düşmənin açıq və ya qismən gizlənmiş mövqelərinə qarşı mübarizədə özünü göstərir. "Qumbara partlayışı nəticəsində yaranan qəlpələr geniş sahəyə yayıldığından canlı qüvvəyə ciddi zərər vurmaq mümkün olur. Effektiv atəş məsafəsinin bir neçə kilometrə yaxın olması isə bölmələrə təhlükəsiz məsafədən hədəfləri məhv etmək imkanı verir".

Azərbaycan Ordusunun sıralarında olmaqdan qürur duyduğunu bildirən Elşad dedi ki, xidmət etdiyi müddətdə üzərinə düşən vəzifələri yüksək məsuliyyətlə yerinə yetirməyə çalışıb. "Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəman şəhidlərimiz öz canlarından, hərbi qulluqçularımız sağlamlıqlarından keçiblər. Onların əmanətini qorumaq isə bizim müqəddəs borcumuzdur. Azərbaycan Ordusu hər zaman istənilən tapşırığı yerinə yetirməyə hazırdır", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elşad Mehdiyev bildirdi.

Heyət nəfəri əsgər Yasin Zamanlı hərbi xidmətin onun həyatında mühüm yer tutduğunu vurğuladı. "Azadlığına qovuşmuş Cəbrayıl torpağının övladı kimi, Azərbaycan Ordusunda xidmət etmək mənim üçün xüsusi məna daşıyır. Burada keçirdiyim hər gün Vətənə bağlılığımı daha da artırır. Orduda qazandığımız bilik və bacarıqlar bizi həm təcrübəli hərbçi, həm də vətəndaş kimi formalaşdırır. Hər birimiz üzərimizə düşən məsuliyyəti hiss edirik. Bizə göstərilən etimadı doğrultmaq üçün öz üzərimizdə çalışırıq. Vətənimizin keşiyində dayanmaq ən şərəfli işdir".

Heyətin digər üzvü əsgər Ziyad Allahverdiyev isə xidmət illərində qazandığı təcrübələrin onun həyatında mühüm iz buraxdığını bildirdi. "Azərbaycan Ordusu gənclərin vətənpərvərlik ruhunda formalaşdığı böyük bir məktəbdir. Hərbi xidmət mənə Vətən sevgisinin nə qədər dəyərli olduğunu daha dərindən dərk etməyə vasitəçi olub. Torpaqlarımızın müdafiəsində dayanmaq isə hər bir gənc kimi, mənim üçün də fəxrdir. Biz döyüş hazırlığı məşğələlərində bilik və bacarıqlarımızı təkmilləşdirərək gündən-günə öz qüdrətini artıran qalib Azərbaycan Ordusunun əsgəri adına layiq olmağa çalışırıq".



Səsləndirilən fikirlər bir daha göstərir ki, ordumuzun gücü yalnız arsenalında olan silahında deyil, həm də onun hərbi qulluqçularının yüksək döyüş və mənəvi-psixoloji hazırlığında, Vətənə və dövlətə sonsuz sədaqətindədir. Söylədiyimiz fikirləri Vətən müdafiəçilərimizin timsalında aydın görmək mümkündür. Müxtəlif bölgələrdə doğulub boya-başa çatmalarına baxmayaraq, onların hamısını eyni məqsəd - Azərbaycanın ərazi bütövlüyü və suverenliyi qorumaq amalına sədaqət birləşdirir. Gündəlik xidmətdə nümayiş etdirdikləri məsuliyyət və nizam-intizam bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Məhz belə hərbi qulluqçularımızın sayəsində Azərbaycan Ordusu qarşıya qoyulan tapşırıqları bundan sonra da müvəffəqiyyətlə yerinə yetirəcəkdir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan xanlıqları və hərbi ənənələr

Azərbaycan Ordusunun zəngin hərb tarixi xalqımızın dövlətçilik ənənələrinin, azadlıq ruhunun və qəhrəmanlıq salnaməsinin ayrılmaz hissəsidir. Bu tarixin mühüm mərhələlərindən biri də XVIII əsrdə Azərbaycanda yaranmış xanlıqlar dövrüdür. Səfəvilər dövlətinin zəifləməsindən sonra Azərbaycanda bir sıra müstəqil xanlıqlar yarandı. Həmin xanlıqlar həm siyasi iradə ilə, həm də hərbi təşkilatlanma baxımından xüsusi əhəmiyyət daşıyırdı. Şəki, Quba, Gəncə, Qarabağ, Naxçıvan və digər xanlıqlar öz ordularını yaratmış, torpaqlarını yadelli hücumlardan qorumaq üçün ciddi mübarizə aparmışdılar. Bu xanlıqların rəhbərləri həm hakim, həm bacarıqlı sərkərdə, həm də Vətən müdafiəçiləri olmuşdular.

### Azərbaycan xanlıqları və hərbi ənənələr

XVIII əsrdə Azərbaycanın müxtəlif bölgələrində yaranmış xanlıqlar arasında daim siyasi və hərbi mübarizə gedirdi. Bununla yanaşı, xarici işğalçılara - xüsusilə İran və Rusiya imperiyalarının təzyiqlərinə qarşı müqavimət əsas məsələlərdən biri oldu. Xanlıqlar öz süvari dəstələri, qalaları və döyüşçüləri ilə regionda mühüm hərbi qüvvəyə çevrilmişdi.

### Şəki xanlığı və Hacı Çələbi xan

Hacı Çələbi xan Azərbaycan hərb tarixində müstəqillik uğrunda mübarizə aparan görkəmli sərkərdələrdən biri olub. O, Şəki xanlığının qurucusu olmaqla bərabər, eyni zamanda, güclü hərbi-siyasi lider olaraq bölgədə güclü dövlət idarəçiliyi yaratmışdır. O, döyüş meydanlarında böyük cəsarət göstərmiş, Şəki qalasını müdafiə etmiş və düşmən hücumlarının qarşısını almışdı. Onun rəhbərliyi ilə Şəki xanlığı iqtisadi və hərbi baxımdan güclənmişdi. Şəki qalaları və müdafiə istehkamları həmin dövrün hərbi memarlıq nümunələrindəndir.

Hacı Çələbi xan xüsusilə gürcü çarları II İrakli və Teymuraz ilə apardığı döyüşlərlə də tanınırdı. O, Gəncə, Qazax və Borçalı uğrunda mübarizələrdə bir neçə dəfə gürcü qoşunlarını məğlub edib. Azərbaycanın müxtəlif xanlıqlarını birləşdirməyə çalışmış və güclü dövlət yaratmaq istəmişdi.

1752-ci ildə baş verən məşhur Qızılqaya döyüşü zamanı gürcü çarı II İrakli bəzi Azərbaycan xanlarını əsir almışdı. Bu xəbəri eşidən Hacı Çələbi xan öz qoşunu ilə hücuma keçərək, ağır döyüşdən sonra gürcü ordusunu məğlub etmiş və əsir düşmüş xanları azad etmişdi. Bu qələbə onun böyük sərkərdə olduğunu göstərməklə bərabər, Şəki xanlığının nüfuzunu daha da artırmışdı.

### Quba xanlığı və Fətəli xan

Fətəli xan Quba xanlığının ən güclü dövrlərini yaşayan hökmdarlardan biri kimi tanınıb. O, XVIII əsrdə Qafqazda




siyasi vəziyyətin çox qarışıq olduğu bir vaxtda Quba xanlığını gücləndirmiş, bir çox ərazilər özünə tabe etdirmişdi. Onun dövründə xanlıq həm hərbi, həm də siyasi baxımdan bölgədə ciddi gücə çevrilmişdi.

Fətəli xanın qəhrəmanlığı əsasən onun döyüşlərdə göstərdiyi cəsarət və dövlətini qorumaq üçün apardığı mübarizələrlə bağlıdır. O, müxtəlif düşmən qüvvələrə qarşı mübarizə aparmış, xanlığın müstəqilliyini saxlamaq üçün bir çox yürüşlər təşkil etmişdi. Fətəli xan bacarıqlı diplomat və güclü sərkərdə idi. Onun əsas məqsədi parçalanmış Azərbaycan xanlıqlarını vahid dövlət ətrafında toplamaq idi. Bu məqsədlə də Dərbənd, Bakı, Şamaxı və digər bölgələri öz hakimiyyəti altına almışdı. O dövrdə Quba xanlığı Xəzər sahillərində ən güclü siyasi mərkəzlərdən birinə çevrilmişdi. Fətəli xan çoxsaylı hərbi yürüşlər etmiş, düşmən hücumlarının qarşısını almış, orduda nizam-intizam yaratmış, süvari qoşunlarını gücləndirmişdi. Fətəli xan Azərbaycan xalqının yaddaşında qorxmaz, qətiyyətli və dövlətini sonuna qədər müdafiə edən bir hökmdar kimi qalıb.

### Gəncə xanlığı və Cavad xan

Cavad xan Ziyadoğlu Qacar xanədanından olan böyük Azərbaycan sərkərdəsi, Qacarlar dövlətində ordu sərdarı, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı olub və Rusiya imperiyasının işğalçı siyasətinə qarşı mərdliklə mübarizə aparmışdır. O, XVI əsrdən etibarən Gəncə şəhərində hökmranlıq edən Ziyadoğlular nəslindəndir.

Cavad xan XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Gəncə xanlığının son hökmdarı kimi tanınıb. O, Qacarlar dövründə Qafqazda baş verən siyasi mübarizələrin ən mühüm fiqurlarından biri olmuşdu. Cavad xan Gəncəni idarə etdiyi illərdə xanlığın müstəqilliyini qorumağa çalışmışdı. Onun dövründə bölgə həm daxili çəkişmələr, həm də xarici təzyiqlərlə üzləşmişdi.

Cavad xanın ən məşhur fəaliyyəti Rusiya imperiyasının Qafqaza doğru irəliləməsinə qarşı göstərdiyi müqavimətlə bağlıdır. XIX əsrin əvvəllərində Rusiya ordusu Gəncə xanlığını işğal etmək üçün hərbi yürüşə başlamışdı. Cavad xan isə azsaylı qüvvələrlə şəhəri müdafiə edərək ciddi müqavimət göstərmişdir. 1804-cü ildə Gəncə uğrunda baş vermiş döyüş onun həyatında həlledici mərhələ olmuşdu.

Gəncə döyüşü zamanı Cavad xan igidliklə vuruşsa da, qəhrəmancasına həlak olmuşdu. Onun ölümü bütün gəncəliləri dərin sarsıtmışdı.

Cavad xan Azərbaycanın azadlıq və mübarizə simvolu kimi tarixdə iz qoymuş bir şəxsiyyətdir. Onun Gəncənin müdafiəsində göstərdiyi qəhrəmanlıq bu gün də yaddaşlarda yaşayan şərəfli bir səhifədir.

Nəticə olaraq, Azərbaycan xanlıqları xalqımızın dövlətçilik tarixində mühüm mərhələ təşkil etmişdir. Bu xanlıqlar siyasi baxımdan parçalanmış şəkildə fəaliyyət göstərsələr də, milli-mədəni dəyərlərin qorunmasında, iqtisadi həyatın inkişafında və bölgələrin idarə olunmasında böyük rol oynamışdır. Hər bir xanlıq özünəməxsus idarəetmə sistemi, ordusu və mədəni mühiti ilə Azərbaycan tarixində dərin iz qoymuşdur.

Azərbaycan xanlıqları dövrü həm də xalqın müstəqillik uğrunda mübarizəsinin, milli kimliyinin və dövlətçilik ənənələrinin formalaşmasının göstəricisidir. Bu tarixi irs günümüzdə də Azərbaycan xalqının keçmişini öyrənmək, milli yaddaşı qorumaq və gələcək nəsillərə çatdırmaq baxımından böyük əhəmiyyət daşıyır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Sıra hazırlığı intizamın və döyüş hazırlığının vacib tərkib hissəsidir



(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsində sıra hazırlığı məşğələsinə rəhbərlik edən baş leytenant Rəsul Quliyev hərbi təhsilini uğurla başa vurmuş gənc zabitlərimizdəndir. O, əvvəlcə Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. Qazandığı bilik və bacarıqlarını daha da təkmilləşdirmək məqsədilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu" keçib. 2023-cü ilin iyulundan "N" hərbi hissəsində taqım komandiri kimi şəxsi heyətin hazırlığında yaxından iştirak edir.

Baş leytenant Rəsul Quliyev hesab edir ki, sıra hazırlığı hərbi qulluqçunun formalaşmasının əsas mərhələlərindən biridir. Onun sözlərinə görə sıra meydanında qazanılan hərbi intizam sonradan döyüş hazırlığında və xidməti fəaliyyətin digər istiqamətlərində də özünü göstərir. "Hərbi hissədə keçirilən sıra hazırlığı məşğələləri sıraya düzülmə, sırada hərəkət etmə, komandaların yerinə yetirilməsi, hərbi salamvermə qaydaları, silahla və silahsız sıra hərəkətlərinin icrası kimi müxtəlif istiqamətləri əhatə edir. Bu məşğələlər şəxsi heyətin vahid kollektiv kimi fəaliyyət göstərməsini təmin edir, hərbi intizamı möhkəmləndirir və döyüş hazırlığının yüksəldilməsinə xidmət edir".

Şəxsi heyətin hazırlanmasında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cəsur Cəsarətoğlunun da xüsusi rolu var. Yeddi ildir ki, Azərbaycan Ordusunun sıralarında xidmət edən hərbi qulluqçumuz 44 günlük Vətən müharibəsində iştirak edib və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cəsur Cəsarətoğlu qazandığı döyüş təcrübəsini gənc əsgərlərlə bölüşür, onlara hərbi xidmətin vacibliyini, hərbi intizamın əhəmiyyətini və komandaların dəqiq yerinə yetirilməsinin döyüş şəraitindəki rolunu izah edir. Onun nəzarəti altında keçirilən məşğələlər şəxsi heyətin sıra hazırlığı bacarıqlarının inkişafına mühüm töhfə verir.

Sıra hazırlığında iştirak edən əsgərlər də məşğələlərə böyük məsuliyyət və həvəslə yanaşırlar. Əslən Tərtər rayonundan olan əsgər Səid Həsənov artıq 10 aydır ki, hərbi xidmətdədir. O, sıra hazırlığının onda məsuliyyət hissini daha da artırdığını bildirdi. Onun sözlərinə görə müntəzəm məşğələlər sayəsində komandaları daha sürətli və dəqiq yerinə yetirməyi öyrənib.

Cəlilabad rayonundan olan əsgər İbrahim Həsənov sıra hazırlığının kollektiv ruhun formalaşmasında mühüm rol oynadığını qeyd etdi. Əsgərin fikrincə, sırada hər kəsin eyni anda və eyni qaydada hərəkət etməsi birlik və qarşılıqlı məsuliyyət hissini gücləndirir.

Əslən Masallı rayonundan olan əsgər Kənan Əkbərov artıq xidmət müddətinin böyük hissəsini başa vurub. Bu müddət ərzində qazandığı təcrübə ona gənc əsgər yoldaşlarına dəstək olmasına imkan verir. O, sıra hazırlığının şəxsi heyətin intizamlı və çevik fəaliyyət göstərməsində mühüm rol



oynadığını vurğuladı.

Əslən Tovuz rayonundan olan əsgər İlkin Süleymanov isə xidmətə başladığı ilk günlərlə müqayisədə özündə ciddi dəyişikliklər hiss etdiyini bildirdi. Vətən müdafiəçisi qeyd etdi ki, sıra hazırlığı onun özünənəmin və məsuliyyət hissinin artmasına kömək edib.

İsmayıllı rayonundan olan əsgər Ümid Dəmirov və Bakı şəhərindən olan əsgər Mehrab Mustafayev da keçirilən məşğələlərdə fəallıqları ilə seçilirlər. Onlar sıra hazırlığının hərbi qulluqçularda dəqiqlik, operativlik və hərbi intizam keyfiyyətlərinin formalaşdırılmasında mühüm rol oynadığını bildirdilər.

Bakı şəhərindən olan əsgər Məhərrəm Babayev isə 13 aydır xidmət edir. O, hesab edir ki, sıra hazırlığı təkcə hərbi vərdişlərin deyil, eyni zamanda, xarakterin formalaşmasına da təsir edir. Məşğələlər zamanı əldə olunan bacarıqlar gündəlik xidmətdə və kollektiv fəaliyyət zamanı özünü aydın şəkildə göstərir.

Komandirlər tərəfindən bölmələrdə digər məşğələlər kimi, sıra hazırlığı məşğələsinə də göstərilən diqqət hərbi qulluqçuların peşəkarlığının artırılmasına, hərbi intizamın daha da möhkəmləndirilməsinə və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə mühüm töhfə verir. Bilikli və təcrübəli hərbi qulluqçularımızın sayəsində bölmələrdə müvafiq hazırlıq prosesləri plana uyğun olaraq uğurla davam etdirilir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**



# “Torpağa can Canpolad” adlı kitabın təqdimatı keçirilib





*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi şəhidi Canpolad Ağaverdi oğlu Əsgərovun əziz xatirəsinə həsr olunmuş və yazıçı Sevinc Azadlının qələmə aldığı "Torpağa can Canpolad" adlı kitabının təqdimat mərasimi keçirilib.*

Şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra kollecin direktoru Asəf Ruşanov kitabın gənc nəsil üçün qiymətli vətənpərvərlik dərsliyi olduğunu vurğulayıb. O, tarixi yaddaşımızı qorumağın, şəhidlərimizin adını uca tutmağın həm insani, həm də milli borc olduğunu qeyd edib. Direktor kollecin tələbələrini, məhz belə qəhrəmanlıq dastanlarından nümunə götürərək yetişdiklərini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Gülşad Rüstəmova Canpolad Əsgərov kimi igid şəhidlərimizin göstərdiyi şücaətin Azərbaycan gəncliyi üçün bir məktəb olduğunu bildirib. O, torpaqlarımızın belə fədakar oğulların qanı-canı sayəsində azad nəfəs aldığını vurğulayıb.

Yazıçılar birliyinin sədri Asim Yadigar isə şəhidlərin qəhrəmanlığını ədəbiyyat vasitəsilə gələcək nəsillərə ötürməyin vacibliyini bildirib. O, "Torpağa can Canpolad" əsərinin hər sətirində bir qəhrəmanın ruhunun yaşadığını bildirib. Yazıçı Sevinc Azadlının bu dəyərli əsərlə şəhidimizin adını söz sənətində də əbədiləşdirdiyini diqqətə çatdırıb.

Daha sonra şairə Təranə Arifqızı ürək sözlərini vətənpərvərlik ruhunda bölüşüb. O, Canpolad Əsgərov kimi şəhidlərimizin adının Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldığını vurğulayıb. Şairə şəhidlərin ölməzliyini tərənnüm edən fikirləri ilə tədbirə xüsusi lirik ovqat qatıb.

Naxçıvan şəhər İcra Hakimiyyətinin nümayəndəsi İsmayıl Gülməmmədov şəhidlərin əziz xatirəsinin dövlət səviyyəsində hər zaman uca tutulduğunu qeyd edib. O, şəhid ailələri və müharibədə sağlamlıqlarını itirənlərlə işin təşkili istiqamətində görülən ardıcıl tədbirlərdən danışıb. Şöbə müdiri Canpolad Əsgərovun adının Naxçıvan şəhərində hər zaman ehtiramla anılacağını və gənclərin vətənpərvərlik tərbiyəsində bu cür tədbirlərin mü-



təmadi dəstəklənəcəyini vurğulayıb.

Radio redaktoru Naminə Məhərrəmova qəhrəman şəhidimizi böyüdən ananın mətanəti və bir övladı Vətənə qurban verməyin ucalığını xüsusi qeyd edib. O, şəhid ailəsinin göstərdiyi bu dəyanətin hər kəs üçün bir mərdlik nümunəsi olduğunu bildirib. Redaktor ananın fədakarlığının cəmiyyətə örnək olduğunu diqqətə çatdırıb.

Şəhidimizin bacısı Ramilə və qardaşı Ramin Əsgərovlar Canpoladla hər zaman fəxr etdiklərini, onun adının bu cür uca tutulmasının ailələri üçün böyük bir təsəlli olduğunu bildiriblər. Onlar qardaşlarının ailədə qayğıkeş, Vətənə və bayrağa sonsuz sevgi bəsləyən bir insan olduğunu xatırladıblar. Doğmaları göstərilən yüksək ehtirama və kitabın ərsəyə gəlməsində əməyi olanlara dərin minnətdarlıqlarını ifadə ediblər.

Kitabın müəllifi Sevinc Azadlı da çıxış edərək ərsəyə gələn yeni nəşr barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Müəllif ekranlaşdırılan və yazılan bu cür əsərlərin şəhidlərimizin unudulmaz xatirəsinə mənəvi borc olduğunu vurğulayıb. O, kitabın hazırlanma prosesində göstərdikləri dəstəyə və igid şəhidimizin xatirələrini bölüşdüklərinə görə şəhid ailəsinə öz dərin minnətdarlığını bildirərək, onlara uca hörmət və ehtiramını ifadə edib.

Çıxışların ardından tələbələrin hazırladığı videoçarx nümayiş olunub, məktəblilərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib və "Naxçıvan" xor qrupunun əzəmətli ifaları ilə tədbirə yekun vurulub. Sonda müəllif tərəfindən imzalanmış kitablar qonaqlara təqdim edilib və şəhid ailəsi ilə birlikdə xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, Canpolad Əsgərov Vətənin ağır günlərində könüllü olaraq cəbhəyə yollanmış, ilk döyüş yoluna doğma Naxçıvanın, xüsusilə Sədərəyin müdafiəsi ilə başlamışdır. O, mənfur düşmən hücumlarının qarşısının alınmasında, sərhədlərimizin qorunmasında böyük rəşadət nümayiş etdirmiş, daha sonra Qarabağ cəbhəsində gedən ağır döyüşlərdə də fəal iştirak etmişdir. Sədərək və Qarabağ uğrunda gedən bu qanlı döyüşlərdə son damla qanına qədər vuruşan Canpolad Əsgərov şəhidlik zirvəsinə ucalıb və Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Təqdim olunan bu yeni nəşr də ömrünü Vətənə fəda edən qəhrəmanın şərəfli döyüş yolunu gələcək nəsillərə ötürmək, onun xatirəsini əbədiləşdirmək baxımından böyük tarixi və bədii əhəmiyyət daşıyır.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

---

*Tarix yazan oğullar*

# Hərbi Andın izi ilə...

*Vətən insanların üzərində doğulub böyüdüyü, torpağına bağlandığı, acısını və sevincini paylaşdığı bir evdir. Bu evi, onun ərazi bütövlüyünü və suverenliyini qorumaq hər bir vətəndaşın həm hüququ, həm də mənəvi borcudur. Ərazi bütövlüyümüzün və suverenliyimizin keşiyində hər zaman öz vəzifəsini məsuliyyətlə yerinə yetirən peşəkar hərbçilər dayanırlar. Ordumuzun qüdrəti onun arsenalında olan silah və texnika ilə yanaşı, qəlbləri Vətən eşqi ilə alışıb-yanan hərbi qulluqçularımızın vətənpərvərliyinə əsaslanır. Bunu 44 günlük Vətən müharibəsində qəhrəman şəhidlərimiz, hərbçilərimiz bütün dünyaya nümayiş etdirdilər. Belə vətənpərvər oğullarımızdan biri də şəhid baş gizir Şixmir Ağamirov olub.*



Şixmir Ağamirov 1990-cı il aprelin 5-də Qusar rayonunda doğulub. 2008-ci ildə tam orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb və xidmətini uğurla başa vurub. Hərbi mühitə uyğunlaşan Şixmir bu sahədə qalmağa qərar verərək, 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Gizir hazırlığı kursu"nu bitirib. Elə həmin ilin avqustunda müdafiə nazirinin müvafiq əmri ilə ona "gizir" hərbi rütbəsi verilib. Xidmət müddətində nizam-intizamı ilə seçildiyinə görə 2019-cu ilin mayında Şixmir Ağamirov "baş gizir" hərbi rütbəsinə layiq görülüb.

Hərbi qulluqçumuz xidmət müddəti ərzində bir çox vəzifələrdə xidmət edib. Gündəlik xidmətindəki intizamı və verilən tapşırıqları vaxtında yerinə yetirdiyi üçün sağlığında komandanlığın rəğbətini qazanmış, nümunəvi hərbçi kimi xidmət yoldaşlarına örnək göstərilmişdir.

2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsində baş gizir Şixmir Ağamirov təcrübəli bir hərbi qulluqçu kimi ön cəbhədə yer alıb. O, hərbi əməliyyatların gedişatında öz vəzifə borcunu layiqincə yerinə yetirməyə çalışıb. Noyabrın 8-də Şuşa ətrafında qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman şəhidlik zirvəsinə yüksəlib. Onun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib və Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş gizir Şixmir Ağamirov ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Onun ömür və döyüş yolu, öz peşəsinə göstərdiyi sadiqlik və hərbi nizam-intizamı xidmət etdiyi hərbi hissədə ehtiramla anılır, gənc hərbi qulluqçulara örnək olaraq göstərilir.

Məhz bu cür intizamlı, öz vəzifəsini layiqincə yerinə yetirən hərbçilərin sayəsində Azərbaycan Ordusu şanlı Zəfərə imza atdı. Qazanılan bu tarixi qələbə illərdir davam edən torpaq həsrətinə son qoymaqla yanaşı, həm də bütöv bir xalqın birliyini və gücünü nümayiş etdirdi. Şixmir Ağamirov və onun kimi yüzlərlə zabit, gizir və əsgər Hərbi Anda sadiq qalaraq, üzərilərinə düşən məsuliyyəti qanları-canları bahasına yerinə yetirdi.

Hərbi əməliyyatlar zamanı canından keçən şəhidlərimizin, sağlamlıqlarını itirən döyüşçülərimizin, igid hərbçilərimizin xidməti bu gün ölkəmizin suverenliyinin, sərhədlərimizin toxunulmazlığının əsas təminatıdır. Vəzifə borcunu şərəflə yerinə yetirərkən şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsi isə qazanılan bu Böyük Qələbənin hər bir səhifəsində əbədi olaraq yaşayacaqdır.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## MEDİA Azərbaycanla bağlı dezinformasiya iddialarına dair açıqlama yayıb




İsrailin İranla apardığı müharibə zamanı guya Azərbaycan ərazisindən istifadə etməsi ilə bağlı iyunun 5-də "middleeasteye.net" və "haaretz.com" informasiya resurslarında yayımlanan iddialar heç bir fakta istinad etmədən tirajlanan kobud manipulyasiya nümunəsi olmaqla dezinformasiya xarakteri daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikir Medianın İnkişafı Agentliyinin açıqlamasında yer alıb.

Bildirilib ki, bu informasiya beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqla yanaşı, regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa, bölgədə gərginlik yaratmağa hesablanıb.

## **Amerikalı ekspert:** ABŞ ilə Azərbaycan arasında münasibətlər dəyişir və inkişaf edir

Prezident Donald Trampın Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumu ABŞ-nin hazırda Azərbaycana tərəfdaş kimi necə müsbət baxdığının göstəricisidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Xəzər Siyasət Mərkəzinin tədqiqat direktoru Erik Rudenşold deyib. Onun sözlərinə görə, zaman irəliləyir və iki ölkə arasında münasibətlər dəyişir və inkişaf edir.

"907-ci düzəliş Cekson-Venik düzəlişi kimi, uzun illərdir qanunvericilik tarixinin qalığıdır. Düşünürəm ki, bu, zamanla ləğv edilə bilər, amma qanunverici orqanın bütün üzvlərinin bunun nə olduğunu, niyə bu günlərdə tarixin qalığı olduğunu bilməsi üçün böyük bir səy tələb olunur. Bu, vaxt aparacaq, amma düşünürəm ki, mümkün ola bilər", - deyə o bildirib

Ekspert, həmçinin "Bakı Enerji Həftəsi"ndə ABŞ-nin geniş nümayəndə heyəti ilə iştirakını xatırladıb.

"Onlar Bakıda ABŞ və Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafı ilə bağlı müzakirələr apardılar. Düşünürəm ki, gələcəkdə daha böyük tərəfdaşlıqlar qurmağa çalışdığımız üçün Azərbaycana böyük maraq var. Bütün bunlar çox müsbətdir", - deyə Erik Rudenşold vurğulayıb.

*Fiziki hazırlıq*

# Fiziki hazırlıq döyüş qabiliyyətinin əsasıdır

*Müasir müharibələrin xarakteri göstərir ki, döyüş meydanında uğur qazanmaq üçün müasir silah və texnikaya sahib olmaqla kifayətlənmək doğru deyil. Hərbi qulluqçuların yüksək fiziki hazırlığı, mənəvi-psixoloji dayanıqlığı və çətin şəraitdə operativ qərar qəbul etmək bacarığı ordunun döyüş qabiliyyətini müəyyən edən əsas amillərdəndir. Məhz buna görə də Azərbaycan Ordusunda şəxsi heyətin fiziki hazırlığına xüsusi diqqət yetirilir, bu istiqamətdə keçirilən məşğələlər döyüş hazırlığının ayrılmaz tərkib hissəsi kimi həyata keçirilir.*



Hərbi xidmət fiziki güc, dözümlülük, çeviklik və iradə tələb edən məsuliyyətli fəaliyyətdir. Müxtəlif iqlim və relyef şəraitində tapşırıqların yerinə yetirilməsi, uzun məsafələrin qət olunması, eyni zamanda, yüksək diqqət və operativlik tələb edən vəziyyətlərdə hərəkət etmək hərbi qulluqçuların fiziki hazırlıq səviyyəsindən birbaşa asılıdır. Buna görə də bölmələrdə təşkil olunan fiziki hazırlıq məşğələləri əsgərlərin sağlamlığının möhkəmləndirilməsinə, dözümlülüyünün artırılmasına və döyüş tapşırıqlarını uğurla yerinə yetirməsinə xidmət edir.



Yenə hərbi hissələrin birindəyik, yenə hər kəsin fəxarətlə, qürurla xidmət etdiyi ünvandayıq. Amalım buradan aldığım məlumatları oxucularımıza təfərrüatlı çatdırmaqdır. Bu niyyətlə də hərbi hissənin zabitinə yaxınlaşdım.

Kapitan Pərvin Tağızadə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) 2018-ci ildə artilleriya ixtisası üzrə bitirib. O, rəhbərlik etdiyi bölmədə şəxsi heyətin fiziki hazırlığının daim yüksək səviyyədə saxlanılmasına xüsusi önəm verir. Zabitin sözlərinə görə fiziki hazırlıq yalnız normativlərin yerinə yetirilməsi ilə məhdudlaşmır. Bu proses hərbi qulluqçuların döyüş şəraitində qarşılaşa biləcəkləri çətinliklərə hazırlanması, onların iradəsinin möhkəmləndirilməsi və kollektiv ruhun gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Zabit qeyd etdi ki, fiziki cəhətdən hazırlıqlı hərbi qulluqçu tapşırıqları daha sürətli və dəqiq icra edir, gözlənilməz vəziyyətlərdə özünü itirmir və daha yüksək nəticələr göstərir. Bu səbəbdən məşğələlər müasir tələblərə uyğun şəkildə planlaşdırılır və şəxsi heyətin hazırlıq səviyyəsinə uyğun olaraq mərhələli şəkildə həyata keçirilir.

Bölmənin digər zabiti baş leytenant Həsən Ələkbərov də fiziki hazırlıq prosesində fəal iştirak edir. 2021-ci ildə indiki Heydər Əliyev adına Hərbi İnstitutu artilleriya ixtisası üzrə bitirən gənc zabit şəxsi heyətlə işləyərkən fərdi yanaşma prinsipinə üstünlük verir. Onun fikrincə, hər bir əsgərin fiziki imkanları və hazırlıq səviyyəsi fərqli olduğundan məşqlərin təşkilində bu məqam nəzərə alınmalıdır.

Zabit bildirdi ki, düzgün qurulmuş məşq proqramları əsgərlərin təkcə fiziki göstəricilərini artırmır, eyni zamanda, onların özünəinamını yüksəldir, çətinliklərə qarşı müqavimətini gücləndirir və komanda daxilində qarşılıqlı etimadın formalaşmasına kömək edir. Bu yanaşma nəticəsində şəxsi heyət arasında sağlam rəqabət mühiti yaranır və hər bir hərbi qulluqçu öz nəticələrini daha da yaxşılaşdırmağa çalışır.

Bölmədə təcrübə keçən kursant Balabəy Qürbətov da fiziki hazırlıq tədbirlərinin fəal iştirakçılarındandır. Gələcəyin zabiti kimi o, ali hərbi təhsil müəssisəsində əldə etdiyi nəzəri bilikləri praktik fəaliyyətlə birləşdirir. Kursant əsgərlərlə birlikdə məşqlərdə iştirak edir, müxtəlif fiziki hazırlıq elementlərinin yerinə yetirilməsində onlara kömək göstərir və qazandığı təcrübəni gələcək xidməti fəaliyyətində tətbiq etmək imkanı əldə edir. Belə fəaliyyət həm kursantın təcrübəli formalaşmasına müsbət təsir göstərir, həm də əsgərlər üçün əlavə motivasiya mənbəyinə çevrilir. Şəxsi heyət gələcəyin zabitlərinin hazırlıq prosesində yaxından iştirakını müsbət qiymətləndirir və bu qarşılıqlı əməkdaşlıq ümumi hazırlıq səviyyəsinin yüksəlməsinə xidmət edir.

Fiziki hazırlıq prosesində əsgərlərin fərdi bacarıqları da xüsusi əhəmiyyət kəsb edir. Əslən Tovuz rayonundan olan əsgər Nahid Məmmədov həvəskar futbolçu kimi kollektiv oyunlarda fəallığı və təşəbbüskarlığı ilə seçilir. Onun komanda oyunlarında nümayiş etdirdiyi çeviklik və fəallıq digər hərbi qulluqçular üçün də nümunə rolunu oynayır.

Quba rayonundan olan əsgər Tərlan Səfərov isə həvəskar güləşçi kimi güc və çeviklik tələb edən məşqlərdə fərqlənir. O, idmanla məşğul olmağın hərbi xidmətdə qazandığı üstünlükləri gündəlik fəaliyyətində nümayiş etdirir və yoldaşlarının da fiziki hazırlığa olan marağının artmasına töhfə verir.



2025-ci ilin müxtəlif aylarında həqiqi hərbi xidmətə çağırılmış əsgərlər də qısa müddət ərzində nəzərəçarpacaq nəticələr əldə ediblər. Zaqatala rayonundan hərbi xidmətə çağırılmış əsgər Hacımurad Havalov, Quba rayonundan əsgər İlham Şıxəliyev, Ağstafa rayonundan əsgər Rauf Nağılı, Astara rayonundan əsgər İslam Musayev və Gədəbəy rayonundan əsgər Ramal Məsimov müntəzəm məşğələlər sayəsində fiziki hazırlıq göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıblar. Onlar sürət, güc və dözümlülük baxımından daha yüksək nəticələr göstərərək döyüş tapşırıqlarının icrasında daha hazırlıqlı vəziyyətə gəliblər.

Bölmədə keçirilən fiziki hazırlıq məşğələləri müxtəlif istiqamətləri əhatə edir. Qaçış, manevrlər zolağının dəf olunması, turnik və paralel qollarda çalışmalar, güc hərəkətləri, dözümlülük məşqləri, eləcə də müxtəlif idman hərəkətləri şəxsi heyətin kompleks şəkildə inkişafına xidmət edir. Bu məşqlər hərbi qulluqçuların həm fərdi bacarıqlarını artırır, həm də komanda ruhunu möhkəmləndirir.

Mütəxəssislərin fikrincə, fiziki hazırlıq döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, hərbi nizam-intizamın gücləndirilməsində, sağlam həyat tərzinin təbliğində və şəxsi heyətin psixoloji dayanıqlığının artırılmasında da mühüm rol oynayır. Məhz bu səbəbdən fiziki hazırlıq Azərbaycan Ordusunda daim diqqət mərkəzində saxlanılır və sistemli şəkildə təkmilləşdirilir.

Azərbaycan Ordusunun əldə etdiyi uğurların əsasını yüksək peşəkarlıq, möhkəm intizam və güclü hazırlıq təşkil edir. Fiziki hazırlıq sahəsində həyata keçirilən tədbirlər də bu uğurların davamlı olmasına xidmət edir. Zabitlərin peşəkar rəhbərliyi, kursantların fəallığı və əsgərlərin əzmkarlığı sayəsində şəxsi heyət hər gün öz üzərində çalışır, daha güclü, dözümlü və Vətənin müdafiəsinə hazır vəziyyətə gəlir. Bu isə ordumuzun döyüş qüdrətinin artırılmasına və ölkəmizin təhlükəsizliyinin etibarlı şəkildə təmin olunmasına mühüm töhfə verir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Sərhədləri aşan şücaət - polkovnik Osman ağa Gülməmmədov (Osman Kazak)

(Əvvəli 1-ci səhifədə)

Osman ağa Gülməmmədov 1918-ci ildə Kürdəmir, Müsüslü, Sanqaçal döyüşlərində daşnak-bolşeviklərə qarşı vuruşub. Bu döyüşlərdə onun süvari dəstəsi düşməndən 106 nəfər əsgər, 3 zabit, 1 həkim əsir alıb, 3 pulemyot isə qənimət olaraq götürüb.

O, 1918-ci ilin sentyabrında Bakı döyüşlərinin ən fəal iştirakçılarından biri olub. Avqustun 17-də Tatar süvari alayının bir bölüyünə Balaxanı kəndindən şimal-qərbdə yerləşən təpəni tutmaq əmri verilib. O.Gülməmmədov kəşfiyyata göndərilib. Qarşı tərəfin mövqelərini öyrənəndən sonra onların arxasına keçərək, vahimə yaratmaq və bununla da hücum edən bölüyün işini asanlaşdırmaq üçün süvari bölüklə həmlə edib.

Düşmən bölüyünün cinahında olan Osman ağa Gülməmmədov şiddətli pulemyot və tüfəng atəşi ilə üzləşib. O, şücaət və mərdliklə vuruşub, fədakarlıq və igidlik nümunəsi göstərərək düşmənin güclü və sayca xeyli çox olmasına baxmayaraq, əlbəyaxa döyüşlə nəticələnən döyüşdə onların müqavimətini qırıb. Hücum zamanı cəsur Osman ağa Gülməmmədovun atı yaralanıb, lakin buna baxmayaraq, o, döyüşə-döyüşə düşmən sıralarına divan tutub. Bu güclü hücuma davam gətirməyən düşmən çoxlu sayda itki verib, qalanları isə qaçıb. Düşmənin 1 zabiti, 1 həkimi, 49 əsgəri əsir götürülüb və 3 pulemyotu qənimət kimi ələ keçirilib. Bakı cəbhəsində bu həmlə həlledici rol oynayıb.

Döyüşlərdə göstərdiyi igidliyə görə Osman ağa Gülməmmədov 1 noyabr 1918-ci ildə "kornet" rütbəsi və general Nuru Paşanın əmri ilə Osmanlının 5-ci dərəcəli "Məcidiyyə" ordeni ilə təltif olunub.

1918-ci il sentyabrın 15-də Bakı işğaldan azad olunduqdan sonra 1918-ci il sentyabrın 23-də Qarabağ hərəkatı başlayıb. Qarabağ hərəkatına qatılan qüvvələrə 9-cu və 106-cı türk



Soldan: Məmməd Ağpolad, Baba bəy Behbud, Məmməd Qazax. Sağdan oturanlar: Osman Kazak, Əyyub Sayqın

alayları, milli könüllü birliklər və 1-ci Azərbaycan diviziyası daxil idi. Osman ağa bu döyüşlərə Tatar Atlı Alayının tərkibində olan atlı bölüyün komandiri kimi qatılıb. 1919-cu ilin yanvarında keçirilən baxış yoxlamasında onun sıralarında döyüşdüyü 1-ci Azərbaycan süvari alayı hərbi nazirin şəxsi təşəkkürünü qazanıb. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hərbi rütbələr haqqında 1919-cu il 16 may tarixli 26 saylı əmri ilə Osman ağa Gülməmmədova hərbi şücaətlərinə görə "poruçik" rütbəsi verilib, vəzifəsi yüksəldilərək 3-cü bölüyün komandiri təyin olunub. 1919-cu il iyunun 26-da 1-ci Cavanşir piyada alayından 1-ci Tatar Atlı Alayına keçirilib. Denikin qüvvələrinin Azərbaycana hücumu təhlükəsi olduğundan və şimal sərhədlərini qorumaq üçün 1919-cu ilin iyulunda Osman ağanın xidmət etdiyi 1-ci Tatar Atlı Alayı Qusara göndərilib.

1920-ci il martın 21-də erməni-daşnak qüvvələri Əsgəranda yerləşən Cavanşir Piyada Alayının mövqelərinə qəfil hücum edib, Əsgəran keçidini ələ keçərək üsyana başlayıblar. Daha sonra Azərbaycan Ordusu Əsgəran istiqamətində genişmiqyaslı hücuma başlayıb. Milli ordunun zabiti kimi Osman ağa Gülməmmədov da süvari alayın tərkibində 30 martda Gəncəyə gəlib və döyüşlərdə iştirak edib.

Əsgəranda başlayan şiddətli döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşıb. Aprelin ortalarına qədər davam edən döyüşlərdə düşmən qüvvələri bütünlüklə məhv edilib.

Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra bir neçə bölgədə işğala qarşı üsyanlar baş tutub. Osman ağanın xidmət etdiyi 1-ci Tatar Atlı Alayı, Cavanşir Piyada Alayı və digər hərbi birliklərlə birləşərək Nuru Paşanın komandanlığı altında Qarabağ üsyanına qatılıb. İyunun 3-dən 4-nə keçən gecə Şuşaya girərək inqilabi komitənin üzvlərini və fəal kommunistləri həbs ediblər.

İyunun 15-nə qədər davam edən üsyan əlavə güclərin gətirilməsi və düşmən təyyarələrinin bombardmanı ilə məğlubiyyətə uğrayıb. Bundan sonra Osman ağa Cümhuriyyət Ordusunun Atlı və Piyada Alaylarının sağ qalan əsgərləri ilə bərabər döyüşlərdə iştirak edərək Karyagin və Cəbrayıl istiqamətində geri çəkilib, Araz çayından keçərək İran ərazisinə daxil olublar. Sonra isə Azərbaycan Cümhuriyyətinin Ordusunun qalan hərbçilərinin bir qismi ilə oradan da Türkiyəyə keçiblər. Türkiyə Böyük Millət Məclisinin qərarı ilə bir atlı, bir piyada alayı və topçu batareyasından ibarət Azərbaycan birliyi Kazım Qarabəkir Paşanın komandanlıq etdiyi Şərq ordusunun (XV kolordu) sıralarına qəbul olunub. Osman ağa Gülməmmədov da 1200 nəfərlik Azərbaycan birliyinin tərkibində 56 nəfər zabitdən biri olub.

Osman ağa Gülməmmədov 1920-ci ilin payızından başlayaraq, 1921-ci ilin əvvəllərinə qədər Şərqi Anadolunun erməni daşnaklarından təmizlənməsi ilə sona çatan "Doğu" (Şərq) hərəkatında və Türkiyənin İstiqlaliyyət savaşında iştirak edib. Bu döyüşlərdə göstərdiyi müstəsna igidliklərə görə Osman ağa qırmızı şeridli (bantlı) "İstiqlal" ordeni ilə təltif edilib. Bu ordeni Mustafa Kamal Atatürkün şəxsən onun sinəsinə asdığı deyilir.

O.Gülməmmədov Qurtuluş savaşından sonra orduda qalaraq hərbi xidmətini davam etdirib və "albay" (polkovnik) rütbəsinə qədər yüksəlib.

1934-cü il iyunun 21-də Türkiyədə qəbul edilən "Soyad qanunu"ndan sonra Osman ağa Gülməmmədov özünə "Kazak" soyadını götürüb.

Təqaüdə çıxdıqdan sonra Qarsda yaşayıb. Qars vilayət məclisinə üzv seçilib. 1950-ci il noyabrın 1-də vəfat edib. Qars şəhidliyində mərasimlə dəfn olunub.

Osman Kazak 1931-ci ildə Qarsda hərbi xidmətdə ikən Nəzakət adlı xanımla ailə qurub. Onların bu evlilikdən Xəzər, Mahmud, Erdal adlı oğulları, Türkan, Fatma, Lalə və Yüksəl adlı qızları dünyaya gəlib.

**"Azərbaycan Ordusu"**

## Hərbi terminlər

# Atəş dəstəyi

*Müasir döyüş əməliyyatlarında qələbəyə gedən yol təkcə şəxsi heyətin hazırlığından və ya texnikanın gücündən asılı deyil. Döyüş meydanında bölmələrin irəliləməsini təmin edən əsas amillərdən biri də atəş dəstəyidir.*

Atəş dəstəyi dedikdə döyüş tapşırığını yerinə yetirən bölmələrin fəaliyyətini asanlaşdırmaq, onların təhlükəsiz irəliləməsini təmin etmək və düşmənin canlı qüvvəsini, atəş vasitələrinin istehkamlarını və digər mühüm obyektlərini məhv etmək məqsədilə həyata keçirilən atəş tədbirləri nəzərdə tutulur.

Atəş dəstəyi müxtəlif vasitələrlə həyata keçirilə bilər. Buraya artilleriya qurğuları, raket sistemləri, tanklar, hərbi aviasiya və digər atəş vasitələri daxildir. Bu vasitələrin koordinasiyalı fəaliyyəti döyüşün gedişinə birbaşa təsir göstərir.

Əməliyyat zamanı atəş dəstəyi hücum edən bölmələrin qarşısındakı maneələri aradan qaldırır, düşmənin müqavimətini zəiflədir və onun manevr imkanlarını məhdudlaşdırır. Müdafiə zamanı isə düşmənin hücumunun qarşısını almağa, onun canlı qüvvəsinə və texnikasına ciddi itkilər verməyə xidmət edir.

Atəş dəstəyinin effektivliyi, ilk növbədə, dəqiq kəşfiyyat məlumatları və düz-



gün planlaşdırmadan, eləcə də bölmələr arasındakı operativ əlaqədən asılıdır. Müasir texnologiyalar, pilotsuz uçuş aparatları, müşahidə vasitələri bu prosesin daha dəqiq və sürətli həyata keçirilməsinə imkan yaradır.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun tətbiq etdiyi dəqiq və koordinasiyalı atəş dəstəyi düşmənin müdafiə xəttinin yarılmasında, strateji yüksəkliklərin və yaşayış məntəqələrinin azad olunmasında mühüm rol oynadı. Döyüş əməliyyatlarının uğurlu nəticələrində atəş vasitələrinin peşəkar və məqsədyönlü istifadəsi xüsusi əhəmiyyət kəsb etdi.

Beləliklə, atəş dəstəyi hərbi əməliyyatların ayrılmaz tərkib hissəsi olmaqla, qoşunların döyüş qabiliyyətinin artırılmasına və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə xidmət edən mühüm amillərdəndir.

**Hazırladı:**
**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# İdman

### Minifutbol üzrə Azərbaycan millisi 2-ci dəfə Avropa çempionu olub



Minifutbol üzrə Azərbaycan millisi Slovakiyada təşkil olunan Avropa çempionatında final oyununu keçirib.

Elşad Quliyevin başçılıq etdiyi komanda qitə çempionluğu uğrunda görüşdə Ukrayna seçməsini sınağa çəkib. "Tipos Arena"da keçirilən qarşılaşmada rəqibini 2:0 hesabı ilə məğlub edən Azərbaycan millisi Avropa çempionu olub.

Qeyd edək ki, bu, minifutbol üzrə Azərbaycan millisinin 2-ci Avropa çempionluğudur. Yığmamız 2022-ci ildə də qitənin ən güclüsü olmuşdu.







### Azərbaycan parataekvondoçuları Romada iki medal qazanıblar

Parataekvondo üzrə dünyanın ən reytinqli idmançılarının iştirak etdiyi Roma Qran-Prisində Azərbaycan milli komandasının üzvləri uğurla çıxış ediblər.

58 kiloqram çəki dərəcəsində mübarizə aparan Sabir Zeynalov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və qızıl medal qazanıb.

70 kiloqram çəki dərəcəsində yarışan İmaməddin Xəlilov isə yarışın bürünc medalına sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Arif Hərif oğluna verilmiş MV № 078651 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qasımov Asəf Eldar oğluna verilmiş MV № 053411 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 567
Nüsxə 3653